**1992-ci il Xocalı Soyqırımının qurbanlarının xatirəsinin anılmasına dair**

**Qətnamə**

İƏT üzv dövlətləri Parlament İttifaqının Nizamnaməsindən və İslam Əməkdaşlıq Təşkilatının Xartıyasından irəli gələn prinsip və məqsədlərindən çıxış edərək;

İslam Sammiti, İƏT Xarici İşlər Nazirlərinin iclasları, habelə İƏT Parlament ittifaqı Konfransı tərəfindən indiyə kimi qəbul olunmuş Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair qətnamələri bir daha təsdiq edərək;

İƏTPİ üzv dövlətlərinin parlamentləri tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü, siyasi müstəqillik və suverenliyinin, habelə münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllinin davamlı dəstəklənməsini bir daha vurğulayaraq;

BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasının ərazisinin işğalını tənqid edən, Azərbaycan respublikasının ərazi bütövlüyü və suverenliyini, beynəlxalq sərhədlərin toxunulmazlığını və torpaqların hərbi güc vasitəsilə işğalının yol verilməzliyini dəstəkləyən və Ermənistan Respublikasının Silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrini bir daha xatırladaraq;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davamlı təcavüzündən, ərazilərin qeyri-qanuni işğalı, beynəlxalq hüququn norma və prinsiplərinin, habelə BMT Təhlükəsizlik Şurasının, İƏT və digər beynəlxalq təşkilatların müvafiq qətnamələrinin kobud şəkildə pozulmasından ciddi narahatlığını bildirərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində qeyri-qanuni və təhrikedici siyasətindən, xüsusilə də həmin ərazilərin fiziki, demoqrafik, iqtisadi və mədəni xarakterinin dəyişdirilməsi məqsədilə həyata keçirilən fəaliyyətdən ciddi narahatlığını vurğulayaraq;

Münaqişə ərzində Ermənistan respublikası tərəfindən yürüdülən və gələcək pozuntular üçün münbit şərait yaradan siyasətdən, xüsusilə beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqlarının kobud şəkildə pozuntusu, mülki vətəndaşların öldürülməsi, etnik təmizlənmə, əsirlərin tutulması və saxlanılması, müharibə əsirlərinə qarşı pis rəftar, yaşayış məskənlərinin dağıdılmasından olduqca mütəəssir olaraq;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ərzində beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqlarının ciddi pozuntusuna görə məsuliyyət daşıyanların cinayət fəaliyyətinə görə ədalət məhkəməsi qarısında hesab vermələrinin vacibliyini vurğulayaraq, habelə bu siyasətin qurbanlarına effektiv hüquqi müdafiə və təzminatın ödənilməsinin təmin

olunması, bu məsələ ilə əlaqədar milli və beynəlxalq səviyyədə əməli addımların atılmasının vacibliyini vurğulayaraq;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ərzində törədilmiş beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqlarının pozuntusunun cəzasız qalmasına son qoyulmasında ədalətin təmin edilməsinə, gələcək pozuntuların qarşısının alınmasına, mülki müdafiə və sülhün bərqərar edilməsinə şərait yaradacağına əminliyini ifadə edərək;

Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının torpaqlarının qeyri-qanuni işğalının davam etməsini, beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqlarının ciddi pozuntusunu qınayan bir sıra dövlətlər və beynəlxalq təşkilatlar qəbul etdiyi qətnamə və qərarları alqışlayaraq;

Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Xocalı şəhərində 1992-ci ilin fevral ayında Azərbaycanın mülki vətəndaşlarına qarşı törədilmiş kütləvi vəhşiliyi insanlığa qarşı cinayət və soyqırımı kimi şiddətlə qınayır;

İƏTPİ üzv parlamentlərini Xocalı şəhərində və Azərbaycan Respublikasının işğal edilmiş digər ərazilərində törədilmiş cinayətin müharibə cinayəti, insanlığa qarşı cinayət və soyqırımı kimi tanınması üçün bütün səylərini əsirgəməməyə çağırır;

“İƏT Anım günü proqramı” çərçivəsində təşviq edilən və Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Xocalı şəhərində 1992-ci ilin fevral ayında törədilmiş azərbaycanlıların soyqrımı tarixi həqiqətlərinin üzə çıxarılması məqsədi daşıyan “Xocalıya Ədalət” beynəlxalq vətəndaş maariflәndirilməsi kampaniyasını alqışlayır;

Bütün İƏT Üzv parlamentlərini bu kampaniyanı dəstəkləməyə və onun fəaliyyətində iştirak etməyə çağırır.

Digər iki komitənin təqdim etdiyi sənədlər də təsdiqləndi. Miqrasiya və qaçqın problemi, terrorizm, islamofobiya və ksenofobiya ilə mübarizə və digər aktual məsələlərin müzakirə olunduğu toplantıda qurumun mədəni və hüquqi məsələlər, sivilizasiyalar və dinlər arasında dialoq üzrə daimi ixtisaslaşmış komitələrinin təqdim etdiyi və sessiyada təsdiqlənən daha bir qətnamədə də ölkəmizlə bağlı bəndlər yer alıb. Sənəddə Azərbaycanın sivilizasiyalararası dialoqa verdiyi töhfə xüsusi vurğulanır. 2016-cı ildə Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna, eləcə də bu sahədə digər çoxsaylı tədbirlərə ev sahibliyi edən ölkəmiz dünyaya nümunə kimi göstərilir. Qətnamədə əksini tapan digər bir mühüm məsələ isə müsəlman ölkələrində mədəni, tarixi və müqəddəs İslam abidələrinin mühafizəsi ilə bağlıdır. Sənəddə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindəki abidələrin, məscidlərin dağıdılması faktları pislənir və təcavüzkar dövlət buna görə məsuliyyət daşımağa çağırılır. Silahlı

münaqişələr zamanı mədəni sərvətlərin qorunmasına dair 1954-cü il Haaqa Konvensiyasının tələblərinin pozulduğu vurğulanır. Sözügedən sənəddə də bütün üzv dövlətlər bir daha Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini tələb edirlər.

Sonra yeni Baş katibin seçilmə proseduruna başlandı. Məlum olduğu kimi, İƏTPİ Baş katibi-Mahmud Erol Kılıcın səlahiyyət müddəti bitdiyindən yeni Baş katib seçilməli idi. Təqribən yarım saat çəkən müzakirələrdən sonra Seneqalın təmsilçisi Məhəmməd Qureyşi Niyaz təşkilatın Baş katibi seçildi. Daha sonra Yekun Məruzə və Yekun Bəyannamə qəbul edildi.

Bu sənədlərdə də Azərbaycanla bağlı bəndlər əksini tapdı. Yekun Bəyannaməyə ölkəmizlə bağlı aşağıdakı üç bənd salındı:

İƏTPİ-dəki nümayəndə heyətlərinin rəhbərləri və üzvləri:

1. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin ciddi şəkildə yerinə yetirilməsini, erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazilərindən tam, qeyd-şərtsiz və dərhal çıxarılmasına çağırır; Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə çağırır;

2.İşğal olunmuş Azərbaycan ərazilərində məscid və müqəddəs islam abidələrinə qarşı qəddar təcavüzü pisləyir, arxeoloji, mədəni və dini irsin talanını

və dağıdılmasını qəti pisləyir. Azərbaycan şəhəri Xocalıda 1992-ci ildə baş vermiş genosid aktını, fevralın 25-dən 26-na keçən gecə bir neçə saat ərzində 613 dinc sakinin, onlardan 106 qadın və 83 uşaq olmaqla, qətlə yetirilməsini qəti pisləyir;

3. Azərbaycan hökuməti və xalqının öz ölkəsinin müdafiəsi naminə göstərdiyi cəhdləri bütövlükdə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu təsdiq edir və bütün dövlətləri ağır həyat şəraiti ilə üzləşən Azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmaları üçün onlara humanitar yardım göstərməyə çağırır.